

## Mirnağı Ağaseyid oğlu Kamilov (1932 – 2023)

2023-cü il fevral ayının 15-də tanınmış neft mütəxəssisi Mirnağı Ağaseyid oğlu Kamilov vəfat etmişdir.

M. Kamilov 1932-ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olub və 1955-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

1955–1980-ci illərdə Neft Daşları NQÇİ-də operator, usta köməkçisi, mühəndis, şöbə müdiri, mədən müdiri, mühəndis texnoloji şöbəsinin rəisi, NQÇİ-nin rəis müavini, əsaslı və yeraltı təmir sexinin rəisi, 1980–1981-ci illərdə N.Nərimanov adına NQÇİ-nin rəis müavini, 1981–1987-ci illərdə "Azneft" İB-nin neft-qaz hasilatı şöbəsinin rəisi, 1987–1988-ci illərdə Bibiheybətneft NQÇİ-nin baş mühəndisi, 1988–1989-cu illərdə Şirvanneft NQÇİ-nin rəisi, 1989–2003-cü illərdə "Azneft" İB-də Neft-qazın hasilatı, quyuların yeraltı və əsaslı təmir üzrə istehsalat şöbəsinin rəisi, 2003-cü ildən "Neftqazelmitədqiqatlayihə" İnstitutunda direktor müavini, 2007-ci ildən 2012-ci ilədək direktorun müşaviri vəzifələrində işləmişdir.

Mirnağı müəllim işlədiyi müddət ərzində özünü mübariz, cəsarətli, işgüzar, bilikli, nizam-intizamlı, öz üzərində daima çalışan təşkilatçı rəhbər kimi tanıtmışdır. Neft-qaz yataqlarının işlənməsində o, ən çətin məsələlərin həlli yollarını axtarıb tapan, səmərəli təklifləri və yeni ixtiraları ilə quyuların istismarında qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına nail olan savadlı mütəxəssis kimi həmişə kollektivdə hörmət qazanmışdır. NQÇİ-lərdə neft və qaz hasilatının artırılması, mədənlərdə, xüsusilə quyuların təmiri sahəsində yeni texnika və mütərəqqi üsulların istehsalatda tətbiqinin bilavasitə təşəbbüskarı olmuşdur.

M. Kamilovun dəniz neft yataqlarında quyuların qazılması və istismarı prosesində neft itkilərinin qarşısının alınması, termokorund və "pobedit" ştuserlərinin tətbiqi, quyudibi zonaların sement, taxta ovuntusu ilə bərkidilməsi, qazlift klapanlarının tətbiqi, qum tıxaclarının yuyulması üçün xüsusi ölçülü başlıqların tətbiqi və s. mühüm məsələlər üzrə elmi məqalələri dərc olunmuşdur. Müxtəlif tərkibli kimyəvi reagentlərin quyuya vurulmasını nizamlayan qurğu, ştanqlı nasos qurğusu, fasiləli qazlift qurğusu, sərbəst asqılı ikicərgəli lift qurğusu, erlift qurğusu, hidroimpuls qurğusu, lay sularının təcrid edilməsinin yeni üsulu, özlü-plastik sistemlərin alışması üsulu, quyuların turşu ilə işlənməsi üçün qurğu, neftin deemulsasiyası üçün yeni tərkib, qaz və qum separatorları ilə bağlı çoxsaylı patent və ixtiraların müəllifidir.

Mirnağı müəllim neftqazçıxarmada mövcud olan problemlər haqqında bir neçə faydalı elmi əsərin, xüsusən "Neft və qaz yataqları və texnoloji proseslər", "Neft quyularının ştanqlı nasoslarla istismarı" və "Ştanqlı quyu nasosunun qaz və qumun zərərli təsirindən qorunması", "Quyuların vintli nasoslarla istismarı", "Neft layı və quyuların hidrodinamik tədqiqat üsulları" kitablarının həmmüəlliflərindən biri olmuşdur.

Mirnağı müəllim 8 monoqrafiyanın, 21 ixtira, 16 patent, 87-dən artıq elmi məqalənin müəllifidir.

Mirnağı Kamilov əməkdə qazandığı uğurlara, nailiyyətlərə görə dəfələrlə dövlət tərəfindən bir çox fəxri adlar və ordenlərlə təltif edilmişdir. O, "Azərbaycanın Neft ustası", "Azərbaycanın Əməkdar mühəndisi", Keçmiş SSRİ-nin "Neft sənayesi əlaçısı", "Akademik İ.M. Qubkin adına mükafat laureatı", "Lenin", "Qırmızı Əmək Bayrağı" ordenlərinə və Ekologiya akademiyasının elmlər doktoru fəxri adına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Prezident təqaüdü ilə mükafatlandırılmışdır.

**Allah rəhmət eləsin!**